

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 75 (23.237)

24 aprel 2019-cu il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Bakının Xəzər rayonunda Mərdəkan-Qala avtomobil yolunun açılışında iştirak edib.

Prezident İlham Əliyev sakinlərlə görüşüb.

Sonra Buzovna-Mərdəkan-Qala avtomobil yolu layihəsi çərçivəsində görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verilib.

Bildirilib ki, bu yolun istifadəyə verilməsi həm sosial, həm də iqtisadi baxımdan olduqca əhəmiyyətlidir. Belə ki, həmin yol Buzovna, Şüvəlan, Qala, Mərdəkan qəsəbələrini birləşdirməklə bu qəsəbələrdə yaşayan sakinlərin şəhərə çıxışını da rahat təmin etməyə geniş imkan yaradır. Eyni zamanda bu qəsəbələrdən Qala-Pirallahı yoluna da birbaşa çıxış təmin edilir. Bununla yanaşı, paytaxtın bu hissəsində yaşayanlar şəhərə daxil olmadan bu alternativ yolla Sumqayıt, həmçinin Şamaxı və Quba istiqamətinə də rahat çıxış əldə edirlər.

Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsib.

Sonda xatirə şəkli çəkdirilib.

## Xarici tələbələr mükafatlandırılıb



Aprelin 23-də Naxçıvan Dövlət Universitetinin əcnəbi tələbələrdən ibarət futbol komandasının üzvləri yarışlarda göstərdikləri uğurlu nəticəyə görə mükafatlandırılıblar.

Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbov bu münasibətlə keçirilən tədbirdə çıxış edərək ali təhsil ocağının hər bir sahədə olduğu kimi, idmanda, xüsusən də futbolda əhəmiyyətli nailiyyətlər qazandığını diqqətə çatdırıb, idman tədbirlərində xarici tələbələrin fəal iştirakının sevindirici olduğunu vurğulayıb. Qeyd olunub ki, əcnəbi tələbələrdən ibarət futbol komandası universiadada göstərdiyi uğurlu nəticəyə görə ali təhsil ocağını Azərbaycan, eləcə də Türkiyə universitetləri arasında keçirilən futbol çempionatlarında da layiqincə təmsil edə bilər.

Seymur Talıbov qalib komandanın üzvlərini təbrik edib, tələbələrə pul mükafatı təqdim olunub.

Xarici tələbələr üzrə dekan, dosent Ceyran Quliyeva əcnəbi tələbələr üçün yaradılan hərtərəfli şəraitə görə minnətdarlığını bildirib.

Stomatologiya ixtisası üzrə hazırlıq kursunun tələbəsi Gür Çetin, Menecment ixtisası üzrə hazırlıq kursunun tələbəsi nigeriyalı Samson Oni Olavale muxtar respublikada təhsilləri ilə yanaşı, həm də asudə vaxtlarının səmərəli keçirilməsi üçün hərtərəfli şəraitin yaradıldığını bildirib, göstərilən diqqət və qayğıya görə minnətdarlıq ediblər.

Qeyd edək ki, universitetdə 16 idman növü üzrə ənənəvi olaraq keçirilən yarışlarda əcnəbi tələbələrin də mütəşəkkil iştirakı təmin edilmişdir.

**Səadət ƏLİYEVA**
***NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## Sahibkarlara və ailə təsərrüfatlarına kredit dəstəyi artır

***Yola saldığımız iki il ərzində ölkəmizin regionları arasında investisiya reytinqinə görə liderlik mövqeyini qoruyub saxlayan Naxçıvan Muxtar Respublikasının müasir sosial-iqtisadi inkişafında sahibkarlıq fəaliyyətinin mühüm rolu vardır. Regionda kiçik və orta sahibkarlığın davamlı olaraq dəstəklənməsi, yerli əhəmiyyətli və ixracyönümlü layihələrin reallaşdırılması üçün təqdim olunan kreditlər və daxili bazarın qorunması kimi stimullaşdırıcı tədbirlər ötən dövrdə muxtar respublikada sahibkarlıq fəaliyyətinin genişləndirilməsində əsas faktorlardan olub. Bundan faydalanan naxçıvanlı sahibkarlar ən müxtəlif sahələr üzrə mal və xidmətlər istehsalı üzrə böyük təcrübə əldə ediblər.***





Cari ilin fevralında Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü zamanı bir qrup sahibkara kreditlərin təqdim olunması onlara göstərilən növbəti dövlət qayğısının daha bir ifadəsidir.

"Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti muxtar respublikamızda qida məhsullarının istehsalı sahəsində mühüm bir inkişaf yolu keçib. Burada qurulan müasir avadanlıqların gücündən istifadə edən təcrübəli mütəxəssislər yüksək standartlara uyğun keyfiyyətli məhsul istehsal edirlər. Türkiyə, Rusiya, İran, ABŞ, Ukrayna, Çin, BƏƏ, Hindistan və digər ölkələrdən olan 50-dən artıq istehsalçı firma ilə əməkdaşlıq edən şirkət məhsul çeşidini genişləndirməklə az müddət ərzində istehlakçıların rəğbətini qazanıb. İstehlak bazarına daha çox çeşiddə məhsul çıxarmaq üçün şirkət ona təqdim olunan kreditlərdən səmərəli istifadə etməyə çalışır. Müəssisədən aldığımız məlumatda bildirildi ki, marşmello, kremli peçenye, jeleli peçenye, kraker və yeni vafli çeşidləri istehsalı üçün "Ləzzət Qida Sənaye" MMC-yə təqdim olunmuş kreditlə gündəlik 10 ton vafli, 10 ton peçenye istehsal edəcək yeni avadanlıqlar alınıb quraşdırılır. Həmin avadanlıqlar Türkiyə mənşəli olmaqla Avropa standartlarına cavab verir. Şübhəsiz, istehsal olunacaq yeni məhsullar həm daxili bazarda, həm də ixrac bazarlarında "Ləzzət Qida Sənaye" MMC-nin sahib olduğu bazar payını da artıracaq.

Şərur rayonunun Zeyvə kəndində fəaliyyət göstərən "Məmməd-Tağı" Məhdud Məsuliyyətli Cəmiyyəti quşçuluq məhsullarının istehsalı ilə məşğul olur. İstehlakçılara Şərur broyler əmtəə nişanı ilə yaxşı tanınan şirkət məhsullarına daxili bazarda geniş tələbat vardır. Bu ildən müəssisəyə yumurtalıq broyler sahəsinin yenidən qurulması üçün kredit dəstəyi təqdim olunub. Gündəlik 35 min yumurta istehsalı məqsədilə 40 min baş toyuq bəslənilməsi üçün Almaniya və Türkiyə mənşəli tam avtomatik avadanlıq alınması nəzərdə tutulub. Yeni istehsal sahəsinin fəaliyyətə başlaması ilə 10-dan artıq iş yeri də yaradılacaq. Ən mühümü isə ilin bütün fəsillərində bazarlar ən zəruri ərzaq məhsullarından biri olan təzə yumurta ilə də təmin olunacaq.

Şahbuz torpağında yetişən yüksəkkeyfiyyətli meyvə-tərəvəzlər, habelə dərman bitkiləri, yabanı meyvə və giləmeyvələr belə məhsullara üstünlük verənlərə yaxşı tanışdır. Bol günəş, təmiz hava və sudan cövhər alan belə təbii nemətlərin alıcıların süfrəsinədək gətirilməsində ailə təsərrüfatları kimi məşğulluq forması öz əhəmiyyətini göstərir. Muxtar respublikamızda ailə təsərrüfatlarının dəstəklənməsi, onların biznesinin daha da genişlənməsi üçün müxtəlif tədbirlərin keçirilməsi ilə yanaşı, onlara kredit dəstəyinin göstərilməsi də bu işlə məşğul olanların həvəslənməsi üçün mühüm bir dövlət qayğısıdır.

Şahbuz rayonunun Biçənək kənd sakini Abbas Hacıyevin ailə təsərrüfatında 8 nəfər meyvə-tərəvəz məhsullarının, yabanı növ bitkilərin tədarükü və konservləşdirilməsi ilə məşğuldur. Onların hazırladıqları məhsullar muxtar respublikamızda artıq ənənə halını almış "Ailə təsərrüfatı məhsulları" festivalında yüksək maraq görüb. 10 ildən artıq bir müddətdə bu işi görən Abbas Hacıyev hər il 20-si dərman bitkisi mənşəli olan 30 çeşiddən çox məhsulu bazara çıxarır. Bu il ona təqdim olunmuş kreditdən istifadə edərək biznesini daha da genişləndirmək istəyir. Qeyd edək ki, bu ailə təsərrüfatının təklif etdiyi məhsulları, xüsusən qablaşdırılmış dərman bitkilərini alıcılar şəhərimizin marketlərində, həftəsonu yarmarkalarının keçirildiyi bazarda həvəslə alırlar.

Sahibkarlıq iqtisadiyyatın aparıcı qüvvəsidir. Ona görə də sahibkarlığın daha da inkişaf etdirilməsi bu qüvvənin gücündən səmərəli istifadə etmək məqsədi daşıyır. Cari ilin fevral ayında Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü zamanı dediyi kimi: ***"Sahibkarlığın inkişafında məqsəd ondan ibarətdir ki, daha çox məhsul istehsal olunsun, daha çox yeni iş yerləri açılsın, sahibkarlıq subyektlərinin ixrac imkanları artsın, ailə təsərrüfatları genişlənsin. Bunun üçün muxtar respublikada hər cür imkan və şərait yaradılıb. Qalır təşəbbüs göstərmək, fəaliyyəti genişləndirmək, rəqabətədavamlı məhsul istehsal etmək və ölkəmizin ümumi inkişafına töhfə vermək".***

✍ **Əli CABBAROV**

## "Sahibkarlıq subyektlərinə əcnəbi işçilərin cəlb edilməsi və kadr hazırlığı" mövzusunda tədbir



*Naxçıvan Biznes Mərkəzində Dövlət Miqrasiya Xidməti və İqtisadiyyat Nazirliyinin birgə təşkilatçılığı ilə "Sahibkarlıq subyektlərinə əcnəbi işçilərin cəlb edilməsi və kadr hazırlığı" mövzusunda tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə açan Dövlət Miqrasiya Xidmətinin Təşkilat-nəzarət şöbəsinin rəisi, I dərəcəli miqrasiya xidməti qulluqçusu Zakir Məmmədov mövzu ilə əlaqədar çıxış edərək bildirib ki, diyarımız hazırda miqrantların yaşaması və işləməsi üçün əlverişli bir məkana çevrilib. Bu baxımdan muxtar respublikamızda haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olan əcnəbilərin sayının ildən-ilə əhəmiyyətli dərəcədə artması da təqdirəlayiqdir.

Zakir Məmmədov qeyd edib ki, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na əsasən müəyyən sahələr üzrə peşəkar kadrların hazırlanması üçün kurslar təşkil edilir. Ötən müddət ərzində bu istiqamətdə məqsədyönlü addımlar atılıb, kadr hazırlığı işi günün tələbləri səviyyəsinə çatdırılıb.

İqtisadiyyat Nazirliyinin aparat rəhbəri Anar Cəfərov çıxışında tədbir iştirakçılarına sahibkarlıq subyektlərinə əcnəbi işçilərin cəlb edilməsi və məşğulluğun artırılmasında sahibkarlığın rolu barədə məlumat verib.

Sonra Dövlət Miqrasiya Xidmətinin baş inspektoru Samir Sadiqovun əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Naxçıvan Muxtar Respublikasında əmək miqrasiyası haqqında məruzəsi dinlənilib.

İqtisadiyyat Nazirliyinin şöbə müdiri Mircavid Tağızadənin, "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin nümayəndəsi Akif Mahmudovun çıxışlarından sonra tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb, bukletlər təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

Naxçıvan Muxtar Respublikası — 95

# Naxçıvan vətənpərvərlər yurdudur

*Culfa rayonunun kənd yaşayış məntəqələrinin böyük əksəriyyəti Babək rayonunun Çeşməbasar kəndindən keçən qol üstündə qərarlaşıb. Bu qola Culfa-Naxçıvan magistralından ayrılan Camaldın kəndini keçməklə də girmək olar. Onu da qeyd etmək istərdim ki, muxtar respublikamızda bərqərar edilmiş ictimai-siyasi sabitlik, nail olunmuş müasirliyi görmək üçün həmin qol üzərində yerləşən yaşayış məntəqələri ən ideal məkanlardır.*



Budur, Çeşməbasar kəndi. Adıçəkilən magistralın kənarına sığınmış bu kənd özünün inkişaf mərhələsinə bir neçə ildir ki, qovuşub. Yoldan ötənlərin diqqətini müasir infrastrukturu ilə cəlb edən kənddə yeni məktəb binası, kənd və xidmət mərkəzləri, səhiyyə məntəqəsi, məscid və yeni yol buraya göstərilən hərtərəfli dövlət qayğısından soraq verir. Yeri gəlmişkən onu da qeyd edək ki, bu yol ən ucqar dağ kəndi olan Boyəhmədə qədər uzanır. Bir-birinə bitişik olan Güznüt kəndi Çeşməbasardan seçilmir. Qəlbimizdə fərəh doğuran həm də odur ki, sərhədlərini ayırmaq mümkün olmayan yaşayış məntəqələrinin hər ikisində eyni obyektlər inşa edilib. Uzaq gələcəyə hesablanmış bu tikililərin ətraflarında sakinlərin müasir üslubda işlənmiş evləri sıralanıb. Bir-birindən gözəl və yaraşıqlı olan bu evlər sosial-iqtisadi inkişafın bəhrəsidir. Sonra diqqətimizi göz işlədikcə uzanan taxıl zəmiləri çəkir. Bu il də bol məhsul götürüləcəyi uzaqdan bilinir. Deməli, torpaq adamlarının çəkdikləri zəhmət hədər getməyib.

Bu, Ərəzin kəndidir. Müasir Azərbaycan kəndinin daha bir canlı nümunəsi. Tarixi qədim, özü cavan. Bütün infrastrukturu yenilənmiş yurd yeri. Vətənpərvər insanların cəmləşdiyi Ərəzində dəfələrlə olmuşam. Təhsilə, elmə böyük önəm verilən yaşayış məntəqəsi özünün yetişdirdiyi elm adamları ilə qürur duyur. Muxtar respublikada ilk məktəblərdən biri 90 il bundan əvvəl Ərəzində fəaliyyətə başlayıb. Ovaxtkı köhnə, uyğunlaşdırılmış məktəb binasının yerində bu gün bütün müasir tələblərə cavab verən yeni bina inşa olunub, digər qurumlara da bu qayğıdan pay düşüb.

Bu qol üstə yerləşən yaşayış məntəqələrini yadıma salmaq istəyirəm. 20-dək kəndi xatırlayıram. Əbrəqunus, Bənəniyar, Saltax, Göydərə, Əlincə, Qazançı, Milax, Boyəhməd, Ərəfsə, Ləkətağ, Teyvaz, həmin yoldan bir qədər aralıda Qızılca, Kırna,



Xoşkeşin, Xanəgah... Bu yurd yerlərinin hər birinin dağı, daşı, qayası qəhrəmanlıq tariximizi özündə yaşadır. Möhtəşəm Əlincəqala 14 il Əmir Teymurun hücumlarına məruz qalsa da, məğlubedilməzliyini göstərdi, dünyanın ən böyük fatehlərindən biri buradan, necə deyərlər, sözün əsl mənasında, əli ətəyindən uzun, suyu süzülə-süzülə geri qayıtdı. Burnu ovulan ordu böyük itki verdi. Naxçıvanlılar torpaq qeyrətini uca tutaraq yurd yerini qəhrəmanlıqla qorudular. Bu gün Əlincəqala Naxçıvanın qəhrəmanlıq simvoludur. Bir neçə il əvvəl böyük zəhmət bahasına Əlincəqala yenidən quruldu, qalada üçrəngli Azərbaycan bayrağı qaldırıldı, ərazidə muzey tikildi. İndi təkcə ölkəmizin başqa bölgələrindən deyil, xarici ölkələrdən gələn qonaqlar da belə möhtəşəm quruculuq tədbirinə heyrətlərini saxlaya bilmirlər.

Hürufilik təriqətinin banisi, Nəsiminin müəllimi Fəzlullah Nəimi öz ideyalarını buradan yaymağa başlayıb. Bu gün onun qəbri, iqamətgahı insanların ziyarət yerinə çevrilib.

Yurd yerinə bağlılığın, sabaha cavabdehliyin, qurub-yaratmaq, doğma diyarı gözəl görmək arzusunun, bu ünvanlarda yaşayan insanların həyat səviyyəsinin yüksəldilməsi üçün çəkilən zəhmətin, onların məşğulluq probleminin həllinə nail olmaq məqsədilə həyata keçirilən belə tədbirlərin bəhrələri istər-istəməz səni yaxın keçmişə aparır: sınıq-salxaq avtomobillərlə saatlarla yol qət edib mənzilbaşına çatmaq bu kəndlərin sakinlərinin ən böyük problemlərindən idi. Fasiləsiz elektrik enerjisindən danışmağa belə, dəyməzdi. Qışda evləri isitmək üçün kəsilən ağaclar da tükənməkdə, ekologiyamıza ciddi zərbə vurulmaqda idi. Əlacsız qalan insanlar meyvə ağaclarını da kəsməyə başlamışdılar. Təhsil, səhiyyə, rabitə obyektləri uyğunlaşdırılmış binalarda fəaliyyət göstərirdi. Bu ünvanlardakı vəziyyət daha da acınacaqlı idi. Muxtar respublika həm də nəqliyyat blokadasına salındığından buraya yanacaq gətirilməsi mümkün deyildi. Odur ki, həmin binalarda soyuq hava şəraiti hökm sürür, təhsilin, səhiyyə, mədəniyyət, rabitə xidmətlərinin səviyyəsi getdikcə aşağı düşürdü.

Adıçəkilən yaşayış məntəqələrinin o günləri yaşamış sakinləri ötən əsrin 90-cı illərinin sonlarını yaxşı və minnətdarlıqla xatırlayırlar. Muxtar respublikada start götürən yeni era – quruculuq ab-havası artıq bu ünvanlara da ayaq açdı. Kompleks quruculuq tədbirləri bir kənddən digər kəndə keçdikcə insanlar unudulmadıqlarını gördülər. Bu gün o yaşayış məntəqələri həm də ən gözəl turizm məkanlarına, bolluq, ruzi-bərəkət ünvanlarına çevrilib. Təmiz suyu, havası, ekoloji sağlam məhsulları var bu yaşayış məntəqələrinin. Dövlətçiliyimizə, müstəqilliyimizə sadiq və vətənpərvər, vətənpərvər olduqları qədər qonaqpərvər insanları məskunlaşdıqları belə yurd yerlərinin qədrini bilirlər. Qurulanları qoruyur, öz zəhmətləri ilə maddi rifah hallarını yaxşılaşdırırlar.

Bu fikirlərlə növbəti yaşayış məntəqəsinə – Əbrəqunus kəndinə çatırıq. Quruculuq ərməğanları elə yaşayış məntəqəsinin girəcəyindən bizi "qarşılayır". Məscid və mərasim evi, Bənəniyar gölündən ayrılan su kanalının üzərində salınmış körpü, kənd mərkəzi, tam orta məktəb, həkim ambulatoriyası və digər müasir tikililər, sözün həqiqi mənasında, göz oxşayır, kəndə göstərilən qayğının ifadəsi kimi diqqəti cəlb edir. Məktəbin həyətindəki qələbəlik diqqətimi çəkir. Avtomobildən düşürəm. Burada muxtariyyətimizin 95 illiyinə həsr olunmuş tədbir keçirildiyini öyrənirəm. Kənd məktəbinin və mədəniyyət evinin birgə hazırladıqları tədbirdə müxtəlif çıxışlar, mahnılar, şeirlər səsləndirilir. Elə bu kənddən də yazı hazırlamaq qərarına gəlirəm. Kənd camaatının da toplaşdığı tədbirdən sonra məktəbin direktoru Fikrət Quliyevlə həmsöhbət oluram. Onu da deyim ki, neçə illərdir, tanıdığım Fikrət müəllim ömrünün 40 ildən artıq bir dövrünü şərəfli müəllim peşəsinə həsr edib. Uzun müddətdir, məktəb direktoru vəzifəsində çalışır. Əbrəqunusun dünənini yaxşı xatırlayır, bu günü ilə fəxr edir.

– Orta təhsil aldığım, sonra isə müəllim kimi əmək fəaliyyətinə başladığım məktəbi tez-tez xatırlayıram. O dövr üçün tipik olan həmin binaya bu gün məktəb deməyə adamın dili gəlmir. Bugünkü şəraitlə o dövrü müqayisə etmək isə sadəlövhlük olardı. Hazırda məktəbdə oxuyan şagirdlərə, gənc müəllimlərə bunları danışanda inanmaqları gəlmir. Çünki qısa bir zaman kəsiyində muxtar respublikada belə inkişafa nail olunması, doğrudan da, böyük möcüzə təsiri bağışlayır, artıq bu qədim diyarın bugünkü mənzərəsini "İnkişafın Naxçıvan modeli" adlandıranlar səhv etmirlər.

Uzağa getməyə ehtiyac yoxdur, – deyə müsahibim Əbrəqunusda həyata keçirilmiş quruculuq tədbirləri çərçivəsində tikilmiş təhsil ocağını misal çəkir:

– Elə götürək bu məktəbi. 3 mərtəbəli bina 432 şagird yerlikdir. Müəllim və şagirdlərin ixtiyarına 23 sinif otağı, 3 elektron lövhə, 12 dəst kompüter, idman zalı, kitabxana, kabinələr verilib. Təhsil ocağı fərdi qazanxanadan istifadə edir. 41 müəllimin, 13 texniki işçinin çalışdığı məktəbin gülzarlığa çevrilmiş böyük həyətyanı sahəsi var.

Direktor deyir ki, müəllimin vəzifəsi təkcə savadlı məzun yox, həm də vətənpərvər gənc yetişdirməkdir. Bunu pedaqoji kollektiv diqqətdə saxlayır.

Məktəbin müəllimləri də söhbətə qoşulurlar. Onların öz vəzifə borclarına məsuliyyət və vətənpərvərliklə yanaşmalarını məktəbin məzunlarının ictimai həyatdakı fəallıqları da sübut edir.

Təhsil ocağının binası ilə yanaşı olan həkim ambulatoriyasının həyətində baş həkim Səftər Həsənov da söhbət zamanı bir qədər keçmişi xatırlayır, yaşayış məntəqəsinin sakinlərinin bütün sahələrdə qayğı ilə əhatə olunduğunu deyir:

– İnsanın qurub-yaratmağında, yaxşı gün-güzərana malik olmağında onun sağlamlığı başlıca amillərdən biridir. Əbrəqunuslular da razılıq edirlər ki, onların sağlamlığı keşiyində dayanan gözəl həkim ambulatoriyası istifadəyə verilib, səhiyyə ocağı müxtəlif tibbi avadanlıqlarla təchiz olunub. Burada 14 nəfər işlə təmin edilib. Ambulatoriyada aptek də yaradılıb ki, artıq kənd adamlarının digər yerlərə üz tutmalarına ehtiyac qalmayıb. Yəni lazım olan dərman preparatlarının sifarişlə kəndə gətirilməsi mümkündür.

Kənd mərkəzləri muxtar respublikada son illərin yeni infrastrukturu kimi diqqəti çəkir. Belə obyektlərin üstünlüyü ondadır ki, yaşayış məntəqələrinin bütün dövlət və özünüidarəetmə qurumları bu mərkəzlərdə yerləşir. Sakinlər vaxt itirmədən öz problemlərini bu ünvanda həll edirlər. Bəhs etdiyimiz yaşayış məntəqələrinin



hamısı kimi Əbrəqunusda da kənd mərkəzi istifadəyə verilib. İkimərtəbəli binada fəaliyyət göstərən müxtəlif təşkilatlarda 20-dən artıq insanın məşğulluğu təmin edilib. Kitabxana müdiri Mətanət Vəlisoy ixtisaslı kadr kimi ona tapşırılan vəzifənin öhdəsindən gəlməyə səy göstərir:

– Müstəqil dövlətimizdə həyata keçirilən siyasətin təməlində insan amili dayanır. Onun yaxşı təhsil alması, tibbi xidmətlə təmin edilməsini, məişət qayğılarına həssaslıqla yanaşılmasını elə bu kəndin də timsalında görmək olar. Ona görə də biz ziyalıların üzərinə ciddi vəzifələr düşür: dövlət siyasətini təbliğ etməklə tariximizin, milli dəyərlərimizin öyrədilməsində fəallıq göstərmək. Həmişə düşünmüşəm ki, kitabxanalar müqəddəs məkanlardır. Çünki bu ünvanların "sakinləri" olan kitablar hər bir insanın formalaşmasında, cəmiyyətə yararlı bir fərd kimi yetişməsində mühüm rola malikdir. Elə buna görə də muxtar respublikada mövcud olan geniş kitabxana şəbəkəsi hərtərəfli qayğı əhatəsindədir. Bu qayğıdan Əbrəqunus kitabxanasına da pay düşüb.

Kənd mədəniyyət evinin müdiri Rəsmiyyə Məmmədova söhbətə qoşulur:

– Bu gün muxtar respublikanın ən kiçik kəndində belə, mədəniyyət evlərinin tikilməsi, müasir iş şəraiti yaradılması bu sahənin inkişafına böyük stimuldur. Belə qayğı müqabilində öz işimizi günün tələbləri səviyyəsində qurmağa çalışır, yaradılmış şəraitə görə dövlətimizə minnətdarlığımızı bildiririk.

Kəndlə şəhər arasındakı fərqlərin aradan götürülməsinin ifadəsidir ki, Əbrəqunusda çörəkbişirmə sexi, bərbərxana, gözəllik salonu fəaliyyət göstərir. Bu xidmət sahələrindən hamı razılıq edir. Kənddə şəxsi minik avtomobillərinin və yeni salınan evlərin sayı ilbəil artır. Hazırda 70-dən yuxarı minik avtomobilinin olması, təkcə keçən il 3 fərdi evin inşa edilməsi əbrəqunusluların həyat şəraitinin gündən-günə yaxşılaşmasının göstəricisidir.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Güloğlan Orucov bu yaşayış məntəqəsi barədə daha geniş məlumat verir:

– Əbrəqunusda 580 təsərrüfatda 2351 sakin yaşayır. Torpağa bağlı, zəhmətdən çəkinməyən, dövlət qayğısını öz üzərində hiss edən kənd sakinləri taxılçılıq, üzümçülük, meyvəçilik, heyvandarlıq, arıçılıqla məşğuldurlar. Torpaq mülkiyyətçiləri bu sahədə zəngin təcrübəyə malikdirlər. Muxtar respublikanın aidiyyəti nazirliklərinin əməkdaşları tez-tez kəndə gəlir, onlar arasında maarifləndirici söhbətlər təşkil edir, bəzi tədbirləri praktik olaraq həyata keçirirlər. Kənd adamlarının texnikalardan istifadəsi də qaydaya salınıb, tədarük edilmiş məhsulların satışının Naxçıvan şəhərində təşkil edilən kənd təsərrüfatı festivallarında, yarmarkalarında iştirakının təmin olunmasında da heç bir problem yoxdur. Güzəştli kreditlərdən istiqaməti üzrə istifadə olunması da bəhrələrini verir.

Güloğlan Orucov deyir ki, cari ilin məhsulu üçün ötən ilin payızında 117 hektarda taxıl əkilib. Ailə təsərrüfatlarında 600-dən çox iribuynuzlu, 3740-dan çox xırdabuynuzlu, 606 arı ailəsi saxlanılır. Baytarlıq xidməti də öz işini bu istiqamətdə qurub.

Muxtariyyətimizin 95 illiyini həyatımızın hər bir sahəsində qazanılan yüksək nailiyyətlərlə qeyd etdiyimiz bir dövrdə əbrəqunuslular da dönüb geriyə baxır, keçilən yolu göz önünə gətirir, fərəh hissi keçirirlər. Bu hisslərdə dövlətimizə, dövlətçiliyimizə, müstəqilliyimizə böyük sədaqət və ehtiram duyğuları öndədir. Bunu həmsöhbət olduğum hər bir əbrəqunuslunun timsalında gördüm. Sabah bundan da yaxşı olacağına inamlarını çöhrələrindən oxudum.

***P.S.*** *Culfa rayonunun müasirliyə qovuşmuş kəndləri haqqında gördüklərimi, düşündüklərimi qələmə almaqda məqsədim heç də müsabiqəyə qatılmaq, yer tutmaq deyil – bunu səmimi qəbul edin. Yazdıqlarım Naxçıvanı özünə qibləgah, müqəddəs, əvəzolunmaz məkan sayan bir naxçıvanlı kimi son illər qədim diyarımızda görülən işləri bir daha xatırlatmaqdır. Bu, tarixdir. Tarixi yaşatmaq vətənpərvərlikdir. Vətənpərvərlik isə hər bir naxçıvanlının qanında və canındadır. Vətənpərvərlik sonradan qazanılmır, qanla gəlir. Naxçıvan vətənpərvərlik sözünün sinonimi, Naxçıvanı qoruyanlar isə ən böyük vətənpərvərlərdir.*

**Muxtar MƏMMƏDOV**

***Bu məqalə "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamının ölkə miqyasında çox böyük rəğbətlə qarşılanması və geniş ictimaiyyət tərəfindən ruh yüksəkliyi ilə həyata keçirilməsi bu dövlət sənədinin milli özünüdərk sahəsində oynadığı möhtəşəm rolun təzahürüdür. Gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşünün formalaşdırılması kimi müqəddəs vəzifələrin həyata keçirilməsinin milli dövlətçilik siyasətinin prioritet istiqamətlərindən olduğunu sübut edən bu sərəncam nəsillərin sağlam ruhlu, Vətən, millət, xalq yolunda hər cür xidmətlərə hazır olan şəxsiyyətlər kimi yetişdirilməsi baxımından da çox əhəmiyyətlidir. Sərəncamda, həmçinin oxunması zəruri olan kitabların siyahısının zənginləşdirilməsinin diqqətdə saxlanılması da nəzərdə tutulub.*

**Oxunması zəruri olan kitablar**

# Pedaqogika tarixinə müasir yanaşma




Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Ali Məclisin Sədri tərəfindən təsdiq edilmiş Tədbirlər Planına əsasən hazırlanaraq nəşr olunmuş "Pedaqoji fikir tarixindən" adlı kitabın "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilməsi sərəncamın icrasının daim diqqət mərkəzində olduğunun sübutudur.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində 2019-cu ildə nəşr olunmuş 288 səhifəlik "Pedaqoji fikir tarixindən" adlı bu kitab pedaqoji mövzuda yazılmış əsərlər içərisində öz orijinallığı ilə seçilən bir elmi-pedaqoji nümunədir. Çünki ölkəmizdə pedaqoji fikir tarixinə dair indiyədək çoxlu ciddi elmi tədqiqatlar aparılmış, dissertasiyalar, monoqrafiyalar, dərslik və dərs vəsaitləri çap olunmuşdur. Hətta pedaqoji antologiyalar da tərtib edilmişdir. Təəssüf ki, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş "populyar pedaqogika" adlandırılan kitablara az rast gəlinir. Bu kitab orijinaldır, ona görə ki, burada tədqiq olunan sahəyə həm ciddi elmi-pedaqoji yanaşma, həm də ictimaiyyətin bütün təbəqələrinə məxsus insanların maraqla oxuyub mənimsəməsini təmin edən materiallar mövcuddur.

Pedaqogika bəzən "çox ciddi", "quru" elm kimi çətin qavranılır. Qəlbə yaxınlığını, cəlbediciliyini, cəmiyyətə gərəkliliyi baxımından xüsusi əhəmiyyətə malik olduğunu dərk etmək üçün onun fəlsəfəsini yaxşı bilmək lazımdır. Haqqında danışdığımız kitabda publisistika ilə yanaşı, pedaqoji prosesin, onun komponentlərinin fəlsəfəsinə dair məsələlərə toxunulduğu üçün yeni nəşr orijinal hesab edilməlidir.

Fikrimizcə, görkəmli rus və Azərbaycan pedaqoji fikir nümayəndələrindən bəhs edən bu kitabın "ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun müəllliminə yazdığı məktub"la başlaması da təsadüfi deyildir. Bu məktub gələcək nəslin şəxsiyyət kimi yetişdirilməsi üçün hansı zəruri keyfiyyətlərə yiyələnməli olduğunu göstərir. Aydın olur ki, ABŞ prezidenti kimi bir adam oğlunun böyüdülməsini müəllimə əmanət edir. O, tərbiyədə müəllimin əhəmiyyətli rolunu görür və həm də bir ata kimi övladında hansı keyfiyyətlər olmasını arzuladığını bildirir.

Hər şeydən əvvəl, "Ona öyrədin ki, hamı dürüst və ədalətli deyil" ifadəsi haqqında. Yəni cəmiyyətə inteqrasiyada sadəlövh olmamalı, adamları tanımadan hamıya etibar etməməlisən. Yaxud "Ona öyrədin ki, qazanılan bir dollar tapılan beş dollardan daha dəyərlidir" – çünki o, halaldır, zəhmətlə əldə edildiyindən qədri bilinir, heç kimdən və heç nədən çəkinmədən ona tam sahibsən; tapmağın dalınca deyil, qazanmağın dalınca gedəcəksən.

"...məktəbdə səhv etmək hiylə gəlməkdən daha şərəflidir" – hiylə ilə qiymət almaq, diplom almaq olar, bilik, bacarıq qazanmaqda səhvlər etsən də, sonda həyatını təmin etmək bacarıqları əldə edərsən.

"Hamı bir-birinə yapışıb gedəndə kütləyə qoşulmayıb öz yolu ilə getməgücü verin oğluma" – tələbilə bildirmək istəyir ki, kütlə şüuru istiqamətləndirməyə, idarə olunmağa möhtacdır. Filosofların dedikləri mənada, şəxsiyyət olmaq üçün müstəqil qərarlara, hadisələri daha düzgün qiymətləndirmək qabiliyyətinə malik adam tərbiyə edilməlidir.

"...gücünü və beynini ən yüksək qiymət təklif edənə satmağı, ancaq ürəyinə və ruhuna qiymət etiketi qoymamağı... öyrədin ona" – yəni gücünü və beynini başqalarına xidmət etməyə vermək olar, bunlar sənin maddi ehtiyaclarını təmin etmək üçün istifadə oluna bilər. Qəlbin və ruhun isə sənin özünə və Yaradanına xidmət etməlidir; onları satmaq olmaz, onlar insan mənəviyyatının tərkib hissələridir.

Başdan axıradək maraqla oxunan bu kitabın pedaqoji məziyyətlərini, fikrimcə, aşağıdakı kimi sistemləşdirmək olar:

Əvvəlcə kitabda haqqında danışılan pedaqoji fikir nümayəndələri barədə. Belə hesab edirəm ki, kitabda "Uşinskinin, Çernyayevskinin, Suxomlinskinin əziz xatirəsinə" və "Pedaqogikada misligörünməmiş təcrübə" bölmələrinin müəllifi həm də pedaqoji dünyagörüşünə sahibdir. Əsərləri nəşrə daxil edilmiş pedaqoqlar məfkurələri baxımından müəyyən ortaq ümumiliyə malikdirlər. İstər K.D.Uşinski, A.O.Çernyayevski, V.A.Suxomlinski, A.S.Makarenko, M.T.Sidqi kimi peşəkar pedaqoqlar, istərsə də M.Qorki, C.Məmmədquluzadə, N.Nərimanov, H.Cavid, E.Sultanov, M.A.Şahtaxtlı, M.S.Ordubadi kimi mütəfəkkirlərin hamısı humanist pedaqogikanın tərəfdarları olmuşlar.

Humanist pedaqogika şagirdin, tərbiyə olunanın şəxsiyyətinə, onun fərdi maraq və qabiliyyətlərinə yönəlmiş pedaqoji istiqaməti əsas götürür. Bu pedaqogika şagirdə təlim-tərbiyə prosesinin şüurlu və fəal iştirakçısı kimi yanaşır, onun əqli keyfiyyətlərinin inkişafını, özünütəkmilləşdirmə və özünüinkişafını ön plana çıxarır. Kitabda adları çəkilən pedaqoq-mütəfəkkirlərin amalı, bütövlükdə, tərbiyənin məhz bu cür şəxsiyyətlər yetişdirmək vəzifəsini icra etməkdir.

İkincisi, pedaqogikanın tədrisi metodikasında belə bir qayda vardır: hər hansı pedaqoji ideyanı tələbələrə daha yaxşı başa salmaq, asan öyrətmək, bu ideyanın əhatə etdiyi bilikləri uzun müddət yadda qalmasını təmin etmək üçün təqdimata həmin ideyanın müəllifinin həyatından və pedaqoji fəaliyyətindən maraqlı faktlar, onun haqqında müasirləri və digər tanınmış şəxslərin söylədikləri, yeri düşsə, onun haqqında olan lətifələrdən başlamaq lazımdır.

Əsərdə pedaqoji görüşlərindən və təlim-tərbiyə haqda fikirlərindən bəhs edilən hər bir şəxs məhz bu cür təqdim olunur. Məsələn, pedaqogika elmində xüsusi yeri olan böyük rus pedaqoqu K.D.Uşinskini oxucuya, müəllimlərə, tələbələrə sevdirmək üçün belə bir cümlə işlədilir: "Uşaq (K.D.Uşinski) ailədə ibtidai bilikləri elə bir həcmdə mənimsəyə bilmişdi ki, birbaşa gimnaziyanın üçüncü sinfinə daxil olmağı bacarmışdı (gimnaziyanın üçüncü sinfi müasir məktəbin, təqribən, altıncı sinfinə bərabər tutulur)".

Yaxud heç bir elmi, xüsusən də pedaqoji təhsili olmayan, lakin hər şeyi öyrənməyə çalışan, fitri istedadı ilə Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə rəhbərlik edən A.O.Çernyayevski də kitabda bu prinsiplə təqdim edilir. Oxucuya aydın olur ki, Azərbaycan xalqının görkəmli oğulları C.Məmmədquluzadəni, F.Köçərlini məhz Çernyayevski Qori Seminariyasına təhsil almağa aparmışdır. Azərbaycanlı uşaqlar üçün sövti üsulla yazılmış "Vətən dili" dərsliyinin, "Müsəlman əlifbasını öyrədən müəllim üçün metodik vəsait" adlı dərs vəsaitinin də müəllifi Çernyayevskidir.

Bu pedaqoji qaydanın tətbiqinə biz A.S.Makarenko haqqındakı yazıda da çox rast gəlirik. Makarenkonun şəxsi keyfiyyətləri barədə çoxsaylı nümunələr onun pedaqoji təlimi barədə oxucuda həm aydın, həm də yaddaqalan təsəvvürlər yaradır. Oxucu bu təlimin düzgünlüyünə tam əminliklə inanır.

Üçüncü cəhət isə kitabda seçilib təqdim edilən pedaqoq-mütəfəkkirlərin əsas elmi-pedaqoji ideyalarının, insan şəxsiyyətinin formalaşması, təlim-tərbiyə işlərinin düzgün təşkili barədə fikirlərin əsas mahiyyətinin müəyyənləşdirilərək verilməsidir. Məsələn, K.D.Uşinski, kitabda da deyildiyi kimi, hərtərəfli pedaqoji təfəkkürə və zəngin pedaqoji irsə malik bir pedaqoqdur. Onun tərbiyənin mahiyyəti, məqsədi, üsulları, insan şəxsiyyətinin formalaşması, yaxud təlim, onun mahiyyəti, prinsipləri, üsul və priyomları, psixoloji əsasları haqda elmi pedaqogikada və məktəb təcrübəsində bu gün də uğurla tətbiq edilən qiymətli fikirləri vardır. Lakin K.D.Uşinskini pedaqogika tarixində məşhurlaşdıran əsas ideya xəlqilik ideyasıdır. Haqqında danışdığımız kitabda Uşinskinin pedaqoji fikir tarixində əsas etibarilə məhz bu ideyaya görə yer tutduğu xüsusi qeyd olunur və bununla da səriştəli bir tədqiqatçı qələminin təsiri duyulur.

Yaxud A.S.Makarenko dünya pedaqogikası tərəfindən qəbul edilən və yüksək qiymətləndirilən pedaqoq – praktikdir. O, insan şəxsiyyətinin tərbiyəsi işini nəzəri baxımdan daha çox, bilavasitə real həyatda praktik olaraq həyata keçirən və bu əsasda böyük bir pedaqoji məktəb yaradan iki-üç dahidən biridir. A.S.Makarenkonu insan cəmiyyəti, tərbiyə işi durduqca yaşadacaq ən əsas pedaqoji ideyası isə kollektivdə, kollektiv vasitəsilə, kollektiv üçün tərbiyə prinsipidir. Bu ideyanın həyata keçirilməsinin əsasında Makarenkonun fikrincə, bunlar durur:

a) kollektivdə hərəkət qanunu;

b) paralel təsir prinsipi;

c) gələcək xətlər sistemi.

"Pedaqoji fikir tarixindən" adlı kitabda Makarenkonun pedaqoji irsindən bu ideya dəqiq müəyyənləşdirilərək təqdim edilə bilmişdir.

Kitabda böyük bir hissə M.T.Sidqi, N.Nərimanov, H.Cavid kimi peşəkar müəllim-pedaqoqların, M.Qorki, M.Şahtaxtlı, C.Məmmədquluzadə, E.Sultanov, M.S.Ordubadi kimi mütəfəkkirlərin maarif və məktəb, təhsil və tərbiyə, əqli və əxlaqi kamillik haqqında fikirlərindən seçmələrə həsr olunmuşdur. Bir daha qeyd edirik ki, bu seçmələri birləşdirən əsas ideya humanist məfkurə, ləyaqətli şəxsiyyət tərbiyəsidir.

Kitab haqqında fikirlərimi şərh edərkən yeni nəşrin bölmələrində dəyərli pedaqoji təhlillər aparmış Reyhan Mirzəzadənin pedaqoji dünyagörüşünə malik olması öz elmi təsdiqini tapır. Məqalə boyu məktəb, təlim, tərbiyə haqqında şəxsi mülahizələri, xüsusilə "yaxşı müəllim kimdir?" sualına cavab kimi yazdığı tezislər onun imzasına "publisist-politoloq" sözlərindən sonra "pedaqoq" titulunu da yazmaq imkanı verir.

*"Pedaqoji fikir tarixindən" adlı əsərin "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilərək çoxsaylı tirajla nəşr olunub geniş oxucu kütləsinə çatdırılması, öz xalqının gələcəyinə biganə olmayan hər bir kəsin istifadəsi üçün əlçatan olması yüksək dəyərləndirilməlidir.*

**İsmayıl ƏLİYEV**
***"Naxçıvan" Universitetinin rektoru, pedaqogika üzrə elmlər doktoru, professor***

## Tələbələrlə görüş

*AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunda Naxçıvan Dövlət Universitetinin Fizika-kimya, Ərəb-fars dili ixtisaslarında təhsil alan tələbələrlə görüş keçirilib.*



Bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək Naxçıvan Muxtar Respublikasında elmə, təhsilə göstərilən diqqət və qayğıdan danışıb.

Vurğulanıb ki, muxtar respublikada son illərdə təhsilin davamlı inkişafını təmin edən sərəncamların imzalanması, güclü təhsil infrastrukturunun, maddi-texniki bazanın yaradılması yüksəkixtisaslı kadr hazırlığı işinin yeni müstəvidə aparılmasına şərait yaradır.

Akademik tələbələrə bölmə haqqında ətraflı məlumat verib, onlarla müntəzəm görüşlərin keçiriləcəyini qeyd edib. İsmayıl Hacıyev tələbələrin gələcəkdə bir mütəxəssis kimi formalaşmalarına bölmə əməkdaşlarının dəstək verəcəyini bildirib, onlara elmi jurnallar hədiyyə edib.

Tədbirdə AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov, Batabat Astrofizika Rəsədxanasının direktoru, dosent Qulu Həziyev, Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov çıxış edərək tələbələri birgə əməkdaşlığa dəvət ediblər.

Görüş çərçivəsində tələbələr bölmənin Əlyazmalar Fondu və Təbii Ehtiyatlar İnstitutunun Fiziki tədqiqatlar laboratoriyasının fəaliyyəti ilə tanış olublar.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

* * *

*Dünən Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyində hamiliyə verilən "Naxçıvan" Universitetinin İqtisadiyyat ixtisasının tələbələri ilə görüş keçirilib.*



Vergilər Nazirliyinin Aparat rəhbəri, baş vergi xidməti müşaviri Əli Şabanov tədbirdə çıxış edərək bildirib ki, Ali Məclis Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı kadr potensialının formalaşması, yüksək intellektli mütəxəssislərin hazırlanması baxımından böyük əhəmiyyət kəsb edir. Sərəncam yeni dövrün tələbi olan startap anlayışının əhatə etdiyi bütün sahələrdə innovasiyanı və dayanıqlı inkişafı əsas götürür.

Sonra Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi, nazirlik üzrə ekspert qrupunun rəhbəri Qəzənfər Bayramovun, "Naxçıvan" Universitetinin İqtisadiyyat fakültəsinin dekanı, iqtisad üzrə fəlsəfə doktoru Mehriban İmanovanın çıxışları olub.

"İdeyadan başlanğıca" devizi ilə müasir düşüncəni və yeni biznes fikirlərini özündə əks etdirən layihələrin – startapların hazırlanması istiqamətində tələbələrlə fikir mübadiləsi aparılıb. Sonra tələbələr nazirliyin müvafiq şöbələrinin və bölmələrinin fəaliyyət istiqamətləri ilə tanış olublar.

**✍ Pərviz HACILI**

## "İnnovasiya laboratoriyası"nın açılışı və "İdeya bankı"nın təqdimatı olub



Dünən Naxçıvan Müəllimlər İnstitutunda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə 2019-cu il 15 aprel tarixdə keçirilmiş "Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə" müşavirədən irəli gələn vəzifələrə həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş sözü ilə rektor Elbrus İsayev açaraq "Startap Naxçıvan" hərəkatına institutun uğurla qoşulması üçün kollektivin qarşısında duran məsul vəzifələrdən danışıb. Qeyd edib ki, müvafiq sərəncamın icrası ilə əlaqədar Naxçıvan Müəllimlər İnstitutunda İnnovasiya laboratoriyası (İnnoLab) yaradılıb. Bu laboratoriya institutda tələbələrin startapla bağlı biliklərinin formalaşması, biznes layihə və planlarının qurulması, bu layihələrin təqdimatı ilə bağlı maarifləndirici treninqlərin keçirilməsini təmin edəcək, tələbə və müəllimlərin innovativ təkliflərinin dəyərləndirilməsinə, bu layihələrin həyata keçirilməsi üçün informasiya texnoloji təminat mühitinin yaradılmasına, internetdə bu layihələrin müzakirə olunmasına köməklik göstərəcək. İnstitutun internet saytında startap layihələrinin qəbulu ilə bağlı "İdeya bankı" yaradılıb. Buraya təqdim olunan layihələr institutumuzun innovativ layihələrə bağlı ekspert şurasında müzakirə və təhlil edilərək dəyərləndiriləcəkdir.

Çıxışlardan sonra tədbir iştirakçıları İnnovasiya laboratoriyası ilə tanış olub, "İdeya bankı"nın təqdimatı keçirilib.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

*Jurnalistin qeydləri*

# Naxçıvanda şahmat
## intellektual gənclik, innovativ inkişaf

***Hər bir xalqın intellektual səviyyəsi onun ən böyük sərvətidir. Müasir dövrdə bu potensialı formalaşdırmaq isə elm və təhsillə yanaşı, həm də şahmatın inkişafını zərurətə çevirmişdir. Şahmat çoxdandır ki, oyun anlayışından uzaqlaşıb. Onu incəsənətlə eyniləşdirənlər də, idmanın bir növü kimi götürənlər də, elmlə ortaq nöqtələrinin olduğunu vurğulayanlar da vardır. Digər bir tərəfdən intellektual təfəkkür vasitəsi kimi şahmat təlim-tədris prosesində, gənc nəslin əqli inkişafında və dünyəvi elmlərə istiqamətləndirilməsində əsas meyar kimi qəbul olunur.***



Azərbaycanda tarixən şahmat geniş yayılmış ənənəvi oyunlardan biri olmuş, xalqımızın mədəniyyətində, bir az da dəqiq desək, məişətində özünəməxsus yer tutmuşdur. İntellektual idman növü kimi şahmatın inkişafına isə ötən əsrin 70-ci illərindən başlanmışdır. Ümummilli liderimiz Heydər Əliyev şahmatın inkişafına böyük diqqət göstərmiş, dövlət səviyyəsində qərarlar qəbul edilmiş, şəhər və rayonlarda şahmat məktəbləri və klubları açılmış,



Azərbaycanın şahmat məktəbi formalaşmışdır.

Ulu öndər Heydər Əliyev deyirdi ki, ***“Şahmat insanı saflaşdıran və kamilləşdirən idman növüdür”.*** Bu gün Naxçıvan Muxtar Respublikasında “bəşər tarixinin ən qocaman kəşfi” adlandırılan şahmatın inkişafına da məhz bu prizmadan yanaşılır. Gənc nəslin əqli inkişafında şahmatın əhəmiyyəti nəzərə alınır, bu sahədə infrastruktur tam müasirləşdirilir, şahmat tədris və təbliğ olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov şahmatı gənc nəslin əqli inkişafında və intellektual potensialının formalaşdırılmasında əsas vasitələrdən biri kimi götürür, bu sahəni daim diqqətdə saxlayır. Muxtar respublikanın quruculuq coğrafiyasında şahmat məktəbləri xüsusi yer tutur. Naxçıvan şəhərində müasir Şahmat Mərkəzi, rayonlarda isə şahmat məktəbləri tikilərək istifadəyə verilmiş, maddi-texniki bazaları möhkəmləndirilmiş, kompüter avadanlıqları və proqramları, müasir şahmat inventarları və sürətli internetlə təmin olunmuşlar.

Naxçıvanda şahmatın inkişafına bu sahədə idarəçiliyin təkmilləşdirilməsi ilə başlanıb. 2002-ci ildə Naxçıvan Şahmat Mərkəzi və 7 rayon məktəbini əhatə edən Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası yaradılmışdır. Hazırda şahmat məktəblərində, ümumilikdə, 250-dən artıq qrup fəaliyyət





göstərir və bu qruplarda 3000-dən artıq gənc şahmatla məşğul olur. Bundan başqa, muxtar respublikanın bütün ümumtəhsil məktəblərində şahmat sinifləri yaradılmış, həftədə 2 saat olmaqla şahmat dərslərinin tədrisinə başlanılmışdır. Hazırda məktəblərdə 4900 şahmat dəsti şagirdlərin istifadəsindədir. 445 müəllim şahmatın tədrisi ilə məşğul olur.

Naxçıvan şahmatının qazandığı ən böyük uğurlardan biri də onun beynəlxalq aləmə inteqrasiya olunmasıdır. İlk dəfə 2002 və 2003-cü illərdə muxtar respublikada şahmat üzrə beynəlxalq turnirlər keçirilmişdir. Ardınca 2003-cü ildə Naxçıvan şəhəri 20 yaşadək şahmatçılar arasında dünya çempionatına ev sahibliyi etmişdir. 2011-ci ildən isə Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş ilk Beynəlxalq Şahmat Festivalı təşkil olunmuşdur. Hər il davam etdirilən bu festival şahmatın inkişafında və gənc şahmatçıların yetişməsində vacib bir addım olmaqla yanaşı, eyni zamanda dünyanın reytinqli şahmatçılarının diqqətini Naxçıvana yönəltmiş, festivala maraq hər il artmış, Naxçıvan özünəməxsus şahmat mərkəzi kimi beynəlxalq səviyyədə tanınmışdır. Bir faktı diqqətə çatdıraq ki, muxtar respublikada keçirilən şahmat festivallarında bu günə qədər 2200-dən artıq yerli və xarici şahmatçı mübarizə aparmışdır.

Şahmatın inkişafı sahəsində görülən işlər muxtar respublikada reytinqli şahmatçıların yetişməsinə səbəb olmuşdur. Bu gün beynəlxalq hakim Emin Hacıyev, FİDE hakimi Hüseyn Tağıyev, beynəlxalq qrossmeyster Urfan Sevdimalıyev, beynəlxalq usta Talıb Babayev, FİDE ustası Toğrul Həsənzadə, FİDE ustası və 15 yaşlı şahmatçılar arasında Avropa çempionatının qalibi Rauf Murtuzov, həmçinin 14 yaşlı şahmatçılar arasında Avropa çempionatının bürünc mükafatçısı, FİDE ustası Firuz Qasımov, Azərbaycan çempionları, FİDE ustaları Sadiq Məmmədov və Aynur Kətanova kimi titullu şahmatçılar Naxçıvan şahmat məktəbinin yetirmələridirlər.

Ötən ilin sentyabr ayında Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasında aparılan kadr islahatı Naxçıvan şahmatının tarixində yeni və davamlı inkişaf mərhələsinin əsasını qoymuşdur. Federasiya 2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında” keçirilən müşavirədə verilən tapşırıq və tövsiyələri əsas taraq fəaliyyətində ciddi dönüş yaratmışdır. Artıq aşağıdakı uğurlu nəticələr bunu bir daha təsdiq edir:

*– Federasiya hər ay muxtar respublikanın bir rayonunda valideynlər, şahmatçılar və müəllimlərlə görüş keçirir, problemlər və təkliflər dinlənilir, müvafiq köməklik göstərilir, çatışmazlıqlar aradan qaldırılır;*

*– Gənc şahmatçıların yetişdirilməsi və peşəkarlıqlarının artırılması sahəsində sistemli işlər görülür, rayondaxili, rayonlararası və kəndlərarası yarışlar təşkil edilir, tempo turnirlər keçirilir və istedadlı uşaqlar üzə çıxarılır;*

*– Əhalinin bütün təbəqələri şahmata cəlb olunur, dövlət idarələrinin əməkdaşları arasında yarışlar keçirilir;*

*– Şahmatın tədrisində Azərbaycan dilində nümunəvi dərs vəsaitlərindən və ədəbiyyatlarından istifadə təmin edilir;*

*– Şahmatla bağlı məlumat-maarifçilik və təbliğat işi aparılır;*

*– Şahmat sahəsində qabaqcıl texnologiyaların, kompüter və kompüter proqramlarının tətbiqi real iş müstəvisinə çıxarılıb, federasiyanın yeni saytı yaradılıb. Artıq onlayn yarışlar keçirilir;*

*– Şahmat Mərkəzində müəllim və şagirdlər üçün bütün ümumtəhsil məktəblərinin və şahmat məktəblərinin qoşulduğu interaktiv dərslər keçilir;*

*– Beynəlxalq şahmat təşkilatları ilə əlaqələrin qurulmasına nail olunub;*

*– Şahmat üzrə məşqçi-müəllimlər və hakimlər üçün seminarlar təşkil edilir;*

*– Dövlət tərəfindən şahmat müəllimlərinin sertifikasiyası aparılır;*

*– Məhdud fiziki imkanlı gənclər şahmata cəlb olunur, onlar arasında şahmat yarışları keçirilir.*

Bir sözlə, qısa müddətdə Naxçıvan Muxtar Respublikasında şahmatın inkişafı sahəsində görülən işlər beynəlxalq şahmat mütəxəssislərinin də etiraf etdiyi kimi, Naxçıvan şahmat məktəbini ümumdünya şahmat ailəsinin nümunəvi üzvünə çevirmişdir.

Naxçıvanda şahmata yanaşma, əslində, ən təkmil və mütərəqqi startap nümunəsidir. Gənclərin əqli inkişafı, onların asudə vaxtlarının səmərəli təşkili, dəqiq elmlərə yönləndirilməsi və innovativ inkişaf Naxçıvan şahmat hərəkatının əsas məqsədidir. Çünki şahmat şagirdlərdə sərbəst düşünmə qabiliyyətini, çevik qərar qəbul etmə, mürəkkəb şəraitdə taktika seçmə kimi vərdişlər formalaşdırır. Bu isə onların gələcəkdə karyera seçməsində mühüm rol oynayır. Və gənclər yaradıcı və özünütəsdiqetmə vərdişlərinə yiyələnməklə səmərəli ideya müəlliflərinə – STARTAPçılara çevrilirlər.

Nəticə isə çox uğurlu və faydalıdır. Yaxın keçmişimizdə çayxanalarda “domino yarışları” keçirib “hünərlərini sınayan”ların yerində bu gün zəka mübarizəsinə qoşularaq öz təfəkkürlərini, potensiallarını daha da artıran intellektli gənclərimiz vardır.

***P.S.** Müdriklər şahmatı formaca oyun, məzmunca incəsənət, bu oyuna yiyələnmə çətinliyinə görə isə elm adlandırıblar. Digər bir tərəfdən isə şahmat birlik, dostluq və sülh oyunudur. Gələn ay keçiriləcək Naxçıvan Şahmat Festivalı da dünya zəka sahiblərini yenidən Naxçıvana toplayacaq, qədim diyar intellektlərin mübarizə məkanına çevriləcəkdir.*

**Ülvi HÜSEYNLİ**
***“Nuhçıxan” İnformasiya Agentliyi***

# “Hədəf” adlı yeni atış təlimi keçirilib



“Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə” 15 aprel 2019-cu il tarixdə keçirilən müşavirədə Ali Məclis Sədrinin verdiyi tapşırıqların icrası ilə bağlı işlər davam etdirilir. Bu çərçivədə dünən “Naxçıvan” Mərkəzi Təlim Mərkəzində “Hədəf” adlı yeni atış təlimi keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Əlahiddə Ümumqoşun Ordu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və Atıcılıq Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən təlimdə 100 gənc iştirak edib.

Əvvəlcə çıxış edən gənclər və idman naziri Azad Cabbarov bildirib ki, adıçəkilən müşavirədə verilən tapşırıqlara əsasən nazirlik Əlahiddə Ümumqoşun Ordu ilə birgə gənclərin hərbi-vətənpərvərlik işini diqqətdə saxlayır, Gənclər Fondu ilə birlikdə maarifləndirici tədbirlərin keçirilməsini təmin edir. “Startap Naxçıvan” hərəkatının əsas məqsədi muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaq, yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək olmaqdır.

Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının sədri Səhət Həbibbəyli çıxışında qeyd edib ki, Atıcılıq Mərkəzi hər bir avadanlıqla təmin olunub, yeni silahlar alınaraq idmançıların ixtiyarına verilib. Federasiya sədri muxtar respublikanın gənclərlə iş, idman, iqtisadi inkişaf, beynəlxalq əlaqələr və ordu quruculuğu sahələrində hamiliklə bağlı görülən işlərdən geniş bəhs edib, gənclərə gələcək karyeralarında uğurlar arzulayıb.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun komandan müavini, general-mayor Teymur Eyyubov muxtar respublikada gənclər sahəsində görülən işlər, onlara göstərilən dövlət qayğısından danışıb.

Sonra “Hədəf” təliminə start verilib. Təlimdə gənclərə silahdan istifadə, silahdan nişanalma, təhlükəsizlik, hədəfə atəş açmaq qaydaları öyrədilib. Təlimdə iştirak edən hər bir gəncə müxtəlif silah növlərinə uyğun 5 mərmi verilərək onların atış sahəsində bacarıqları sınaqdan keçirilib.

Fərqlənən gənclərə Gənclər və İdman Nazirliyinin fəxri fərmanları təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

# Atletlərimizdən 3 medal

Göygöl rayonunda yüngül atletikanın kross qaçış növü üzrə Azərbaycan çempionatı keçirilib. Çempionatda Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının 4 idmançısı da mübarizə aparıb. 4 kilometr məsafəyə kross qaçışı üzrə keçirilən




yarışlarda idmançımız Gülayə Cəfərova finiş xəttinə ikinci çatıb. Eyni uğuru 6 kilometr məsafədə Səfər Tağıyev də qazanıb. Digər idmançımız Əmrah Nağıyev isə 10 kilometr məsafəyə qaçışda qüvvəsini sınayıb və gümüş medal qazanıb.

Sonda idmançılarımız medal və diplomla mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 281